| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 11.08.2022 |
| QEYDİYYAT NÖMRƏSİ | 295 |
| ADI | “Şuşa şəhərinin ərazisində qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin Siyahısı”nın təsdiq edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı (Dərc olunma tarixi: 11.08.2022), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31.08.2022, Nəşr nömrəsi: 8, Maddə nömrəsi: 983) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 11.08.2022 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 210.010.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 14202208110295 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 15.08.2022 |

**“Şuşa şəhərinin ərazisində qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin Siyahısı”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1374 nömrəli Fərmanının 2.1.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1.“Şuşa şəhərinin ərazisində qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 11 avqust 2022-ci il
295

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2022-ci il 11 avqust tarixli 295 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Şuşa şəhərinin ərazisində qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin**

**SİYAHISI**

| **Sıra - si** | **Sahibkarlıq fəaliyyəti növlərinin təsnifatı** (AZT029-2008) | **Təsnifat kodu** |
|---|---|---|
| **1** | **2** | **3** |
| **1.** | Bitkiçilik və heyvandarlıq, ovçuluq və bu sahələrdə xidmətlərin göstərilməsi<br>(**01492** - barama qurdunun yetişdirilməsi və barama istehsalı;<br>**01491** - arı balının və arı mumunun istehsalı;<br>**01611**- bitkiçilik sahəsində xidmətlərin göstərilməsi istisna olmaqla) | **01** |
| **2.** | Daş kömür və liqnit hasilatı | **05** |
| **3.** | Xam neft və təbii qaz hasilatı | **06** |
| **4.** | Metal filizlərin hasilatı | **07** |
| **5.** | Mədənçıxarma sənayesinin digər sahələri | **08** |
| **6.** | İçki istehsalı<br>(**1107** - mineral sular və digər suların butulkalarda istehsalı; alkoqolsuz içkilərin istehsalı istisna olmaqla) | **11** |
| **7.** | Tütün məmulatlarının istehsalı | **12** |
| **8.** | Dərinin aşılanması, rənglənməsi və hazırlanması | **1511** |
| **9.** | Kağız və karton istehsalı<br>(**1721** - büzmələnmiş karton, kağız, karton və kağız taraların istehsalı;<br>**1722** - təsərrüfat-məişət və sanitariya-gigiyena təyinatlı kağız məmulatlarının istehsalı;<br>**1723** - dəftərxana və kağız məmulatlarının istehsalı istisna olmaqla) | **17** |
| **10.** | Koks və təmizlənmiş neft məhsullarının istehsalı | **19** |
| **11.** | Kimya sənayesi<br>(**20420** - ətriyyat və kosmetika vasitələrinin istehsalı istisna olmaqla) | **20** |
| **12.** | Rezin və plastmas məmulatların istehsalı<br>(**22193** - müxtəlif növ möhürlərin və ştampların hazırlanması; plastik qapı-pəncərə istehsalı istisna olmaqla) | **22** |
| **13.** | Digər qeyri-metal mineral məhsulların istehsalı<br>(misgərlik fəaliyyəti qalayçılıq fəaliyyəti;<br>yeməkxana saxsı qablarının, digər təsərrüfat və tualet saxsı ləvazimatlarının istehsalı;<br>saxsı məmulatların istehsalı istisna olmaqla) | **23** |
| **14.** | Metallurgiya sənayesi | **24** |

| | | |
|---|---|---|
| **15.** | Elektrik avadanlıqlarının istehsalı | **27** |
| **16.** | Maşın və avadanlıqların istehsalı | **28** |
| **17.** | Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | **29** |
| **18.** | Sair nəqliyyat vasitələrinin istehsalı | **30** |
| **19.** | Qazın istehsalı | **35210** |
| **20.** | Təhlükəsiz tullantıların emalı və ləğv edilməsi | **3821** |
| **21.** | Təhlükəli tullantıların emalı və ləğv edilməsi | **3822** |
| **22.** | Digər tullantıların yığılması və məhv edilməsi<br>(zibilin və tullantıların yığılması və daşınması;<br>ictimai yerlərdə zibilin zibil yeşiklərinə yığılması və onların daşınması;<br>küçələrin, yolların, maşın dayanacaqlarının və s. süpürülməsi və sulanması;<br>qar və buzdan təmizlənmə istisna olmaqla) | **39** |
| **23.** | Dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması | **43112** |
| **24.** | Kəşfiyyat qazıntısı | **43130** |
| **25.** | Taxılın, emal olunmamış tütünün, toxumların və heyvanlar üçün yemin topdan satışı | **46210** |
| **26.** | Diri heyvanların topdan satışı | **46230** |
| **27.** | Dəri və gönün topdan satışı | **46240** |
| **28.** | Kənd təsərrüfatı maşınlarının və avadanlıqlarının topdan satışı | **46610** |
| **29.** | Dəzgahların topdan satışı | **46620** |
| **30.** | Dağ-mədən və tikinti, o cümlədən mülki tikinti üçün maşın və avadanlıqların topdan satışı | **46630** |
| **31.** | Yanacağın topdan satışı | **4671** |
| **32.** | Metal və metal filizinin topdan satışı | **4672** |
| **33.** | Meşə materiallarının, tikinti materiallarının və sanitar- texniki avadanlıqların topdan satışı | **46730** |
| **34.** | Gübrə və aqrokimyəvi məhsulların topdan satışı | **46752** |
| **35.** | Tullantıların və qırıntıların topdan satışı | **46770** |